# Müstəqilliyimizə dönməzlik və əbədilik qazandırmış partiya

**Yeni Azərbaycan Partiyası ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik əzminin parlaq inikasıdır. Bu partiyanın otuz yaşına çatması, cəmiyyətdə birmənalı olaraq qəbul edilməsi dahi şəxsiyyətin ideyalarının əbədiyaşarlıq rəmzidir. Bu, sıradan bir rəmz deyil. YAP Azərbaycan dövlətçiliyinin ali miqyaslı rəmzidir.**

Ölkəmiz çoxəsrlik dövlətçilik ənənələrinə malikdir. Qədim dövrlərdən başlayaraq, Vətənimizin ərazisində dövlət birlikləri və dövlətlər olub. Onlar zamanın müxtəlif obyektiv proseslərinin təsiri ilə sıradan çıxıb, yenidən formalaşma mərhələsi yaşayıblar. XX əsrin əvvəllərində Azərbaycanın müstəqilliyinə qovuşması isə uzunsürən mərhələlərə xas ictimai şüur və təfəkkürün, milli mənlik məfkurəsinin nəticəsi kimi qiymətləndirilə bilər.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə dövlətçilik ənənələrimiz bərpa olundu. O dövrün həyatını xarakterizə edərkən, siyasi partiyaların da rolunu görməmək mümkün deyil. Lakin onlar istər struktur, istərsə də cəmiyyətə təsir baxımından institusionallaşmış forma və məzmun qazanmamışdılar. Əlbəttə, bunu həmin qurumların nöqsanı kimi dəyərləndirmək niyyətindən uzağıq. Çünki tarixin diktə etdiyi ağır reallıqlar özünü göstərirdi. Təbii şərait və ənənə amili də mütləq qaydada nəzərə alınmalıdır ki, onların heç biri yox idi. Buna görə də 1918–1920-ci illərdə Azərbaycan cəmiyyətində siyasi partiyaların ictimai həyatdakı təmsilçilik göstəricilərində dinamika müşahidə olunmadı. Onların ümummilli önəm daşıyan hadisə və proseslərə mütəşəkkil münasibət gücü nəzərə çarpmadı.

1920-ci ilin Aprel işğalı yaşandı, Sovet Azərbaycanı, ardınca SSRİ quruldu. 70 il ərzində Azərbaycan cəmiyyəti partiya deyərkən ağlına yalnız Kommunist Partiyasını gətirdi. Bu təsəvvür sosializmin və kommunizmin o zamankı populyarlığı, nüfuz göstəriciləri ilə bağlı deyildi. Yəni alternativsizlik bir siyasi təşkilata rəqib olacaq düşüncənin yoxluğundan qaynaqlanmırdı. Məsələ dövrün mahiyyətindəydi.

SSRİ-nin dağılması ilə bağlı müxtəlif əsaslandırmalar var. Onların hər birini haqlı saymaq mümkündür. Çünki arqumentlər keçmişdə yaşanmış prosesin təfərrüatlarına aydınlıq gətirir. Hər kəs olub-bitənləri görür və onlara öz baxış bucağından yanaşır. Biz də bir rakursdan baxaraq deyirik ki, SSRİ-nin süqutu həm də Kommunist Partiyasının hakim rol oynadığı sistemin çürüklüyündən, saxtakarlığından qaynaqlanırdı. O saxtakarlıq ki, quruluşa qarşı cəbhəni elə həmin partiyanın öz içindən açdı. Leninin təbirincə desək, yuxarılar əvvəlki qaydada idarə etmək, aşağılar isə əvvəlki qaydada idarə olunmaq istəmədi,.

Bəli, sovet quruluşu saxta idi. Hər anlamı ilə saxta. Bu isə ona müxaliflik meyillərini doğururdu. Çünki idarəçilikdə çürüklüyün eyni ideya ətrafında toplaşmış insanları bir-birinə qarşı qoyması qaçılmaz idi. Saxtakarlıq maraq və mənafelərin ödənməsindəki paritetliyi pozurdu. Bu isə öz növbəsində, bütövlükdə ədalət prinsiplərinin pozulması anlamına gələn daha böyük reallığı doğururdu.

SSRİ-nin süqutu ilə Azərbaycanın əldə etdiyi müstəqillik ilk baxışdan qaçılmaz proses kimi görünsə də, ötən əsrin 90-cı illərinin əvvəllərində baş vermiş hadisələr deməyə əsas verir ki, suverenlik üçün zəruri baza olar, təkmil, mühit isə kifayət qədər əlverişli deyildi. Ulu öndər Heydər Əliyev əbəs yerə demirdi ki, müstəqilliyi qorumaq, onu əldə etməkdən çətindir. Bəli, qeyd etdiyimiz mərhələdə Azərbaycan öz tarixinin çox çətin və olduqca mürəkkəb dövrünü yaşadı.

**(ardı 5-ci səhifədə)**

# Müstəqilliyimizə dönməzlik və əbədilik qazandırmış partiya



(əvvəli 1-ci səhifədə)

Müstəqilliyimizin ilk illərində sovet quruluşu ilə birgə tarixin arxivinə gömülmüş partiya sisteminin stereotipləri varlığını sürdürürdü. Ona alternativ olaraq formalaşmış və təbii təbəddülatların təsiri ilə uğur qazanmış xalq hərəkatındakı meyillər pərakəndəliyi ilə seçilir, dövlətçilik təfəkkürünü deyil, lokal maraq və mənafelərin ifadəsini rəhbər tuturdu. Həmin illəri təlatümlü mərhələ kimi xarakterizə edərkən, məhz bu məqamın üzərində dayanmaq lazımdır.

Nəticə etibarilə, biz dövlətçiliyimizin itirilməsi təhlükəsini yaşadıq. Ona görə yaşadıq ki, Azərbaycanda dövlətçiliyə institusional baxış yox idi. Sovetlər Birliyinin dağılmasını şərtləndirən hərəkatın dövləti necə idarə etməklə bağlı təsəvvürü bəsit idi. Bu təsəvvürdə dövlət əxlaqı və ərkanı anlayışları prinsipial mahiyyət qazanmamışdı.

Yuxarıda XX əsrin əvvəllərindəki partiyaçılığı təsadüfən xatırlamadıq. O partiyaçılıq da haqqında söz açdığımız institusional baxışın formalaşmasını təmin etməmişdi. Azərbaycan Kommunist Partiyası da, içində bəslədiyi müəyyən mütərəqqi təmayüllərə rəğmən, daxili sistem olaraq, milli dövlətçilik ideyalarını görmürdü, görə də bilməzdi. Yəni ondan, heç bir halda, müstəqil Azərbaycanın idarəçiliyinə yanaşma gözləmək mümkün deyildi. Deməli, bu tərəfdən də xalqın istək və arzularının ifadəçisinə çevriləcək partiya ənənəsi istisna təşkil edirdi.

Bəli, Yeni Azərbaycan Partiyası Azərbaycanın müstəqilliyinə baxışın partiya ənənəsini formalaşdırdı, ortaya dövlətçiliyimizə institusional baxış bucağını qoydu. Elə bir baxış ki, səmimiyyətə əsaslanaraq, xalqın rifahını, ölkənin asayişini, tərəqqisini reallığa, inkişafını və güclənməsini hədəfə çevirdi. Bu baxış müstəqilliyimizə dönməzlik və əbədilik qazandırdı.

Əslində, Heydər Əliyev Azərbaycana rəhbərliyinin ilk dövründə gələcək müstəqillik üçün kadr bazası formalaşdırmışdı. Ulu öndər bunu gənclərimizin Ümumittifaq miqyaslı ali məktəblərdə təhsil almalarını təmin etməklə gerçəkləşdirmişdi. Onun sayəsində minlərlə şəxs yüksək ali savad alaraq Vətənə dönmüşdü. Onların bir çoxu xalq hərəkatında iştirak etsə də, daşıdıqları təfəkkür, malik olduqları səviyyə dövlət müstəqilliyimizin ilk illərində yaranmış idarəçilik sisteminin şərtlərinə uyğun gəlmirdi. Əslində, uyğun gələ də bilməzdi. Çünki bu adamlar idarəçiliyə qaragüruhçu ovqat qatmaq istəklərindən uzaq idilər.

Nəticə etibarilə Heydər Əliyevin formalaşdırdığı kadr potensialı Azərbaycan dövlətinə xidmət baxımından özünütəsdiq meydanı tapa bilmirdi. Yeni Azərbaycan Partiyasının formalaşması onlara bu meydanı verdi. Ən əsası isə YAP-ın yaranması Heydər Əliyevin Azərbaycanın müstəqilliyi üçün, uzun illərdən bəri durmadan çalışmasının, kadr bazası formalaşdırmaqla yanaşı, reallaşdırdığı digər irimiqyaslı tədbirlərin, bir növ, kulminasiyasını təşkil etdi.

Bu günün Yeni Azərbaycan Partiyası Azərbaycan naminə olan böyük ideyaların həyata vəsiqə qazandığı, təklif və təşəbbüslərin gerçəkləşdirildiyi platformadır. Heydər Əliyev ölkə Prezidenti kimi fəaliyyət göstərdiyi illərdə bu platformanı zənginləşdirdi, ona nəhənglik çaları qazandırmaqla, Azərbaycan dövlətinə, dövlətçiliyinə, azərbaycançılıq məfkurəsinə xidmətin ali strukturuna çevirdi. Ümummilli liderin ideyaları YAP-ın fəaliyyətinin timsalında fundamentallıq qazandı. Artıq bu partiya cəmiyyətimizin hərəkətverici qüvvəsidir, əsl ziyalı tribunasıdır.

***

Bəli, qətiyyətlə vurğulaya bilərik ki, Yeni Azərbaycan Partiyası, eyni zamanda, Heydər Əliyev idarəçilik kursunun, azərbaycançılıq ideologiyasının varislik təntənəsidir. Bu, son dərəcə vacib məqamdır. Çünki bu varislik Azərbaycan dövlətçiliyinin gələcəyinin ali təminatıdır. Azərbaycan dövlətçiliyi üçün dövlətə Yeni Azərbaycan Partiyası sədrinin başçılıq etməsindən böyük təminat yoxdur. Xalqımızın 2003-cü ilin prezident seçkilərində ulu öndərin layiqli davamçısı cənab İlham Əliyevi dövlət başçısı seçməsi də, bütün seçkilərdə YAP-ın namizədini və namizədlərini dəstəkləməsi də bundan qaynaqlanırdı. Xalq YAP-ın varislik ənənəsini dəstəkləyirdi, bu gün də dəstəkləməkdədir.

Heydər Əliyev ideyalarının məhək daşı sayılan Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi kimi əlamətdar hadisənin torpaqlarımızın, Qarabağımızın düşmən tapdağından azad olunduğu bir dövrdə yaşanması ilahi ədalətdir. Çünki ulu öndər prezidentliyi, elə YAP-ın sədri kimi fəaliyyət göstərdiyi illərin hər birində Qarabağ, ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda yorulmadan, böyük əzmlə çalışıb. Dünyanın elə bir nüfuzlu beynəlxalq tədbiri, konfransı, elə bir mötəbər tribunası olmayıb ki, Heydər Əliyev oradan haqq səsimizi ucaltmasın, üzləşdiyimiz işğal faktını qabartmasın, dünyanın bu ədalətsizlik qarşısında susduğu barədə bəyanatlar verməsin.

Ümummilli liderin siyasi varisi olan İlham Əliyev də Azərbaycan Prezidenti kimi, eyni kursu davam etdirməklə yanaşı, Böyük Qələbəmiz üçün həm ideoloji zəmin yaratdı, xalqın ruhunu daim diri saxladı, həm də ölkəmizi iqtisadi və hərbi cəhətdən gücləndirdi. Nəzərə alaq ki, ulu öndər 24 oktyabr 1992-ci il tarixində imzaladığı və "Səs" qəzetində dərc etdirdiyi "Yeni müstəqil Azərbaycan uğrunda!" adlı konsepsiya mahiyyəti daşıyan məktubunda Yeni Azərbaycan Partiyasının rəhbər tutduğu beş əsas prinsipi açıqlayırdı. Bunlardan birincisi "Azərbaycanın müharibə vəziyyətindən çıxarılması və Qarabağ probleminin həlli" idi. Bu gün Azərbaycan Qarabağ problemini həll edib. Azərbaycan Prezidenti cənab İlham Əliyev Silahlı Qüvvələrimizin Ali Baş Komandanı kimi həm də xalqımızın müzəffər lideridir. YAP da öz sədrinin timsalında müzəffər partiya statusundadır.

Yeni Azərbaycan Partiyası şanlı keşmişimizin ənənələrini yaşadan, dünənimizə işıq saçan, bu günümüzün firavanlığını, asayişini təmin edən böyük mərkəzdir, saat əqrəbi kimi dəqiq işləyən mexanizmdir.

YAP yaşadığımız Cənubi Qafqaz coğrafiyasının ən böyük siyasi təşkilatıdır. Onun böyüklüyü həm də xalq-iqtidar vəhdətinin nümunəsi olmasından qaynaqlanır. Mövcud yüksək statusu əminliklə onu da deməyə əsas verir ki, YAP müstəqil Azərbaycanımızın dünəninin, bu gününün və gələcəyinin də partiyasıdır.